# Bütün ulduzlar Azərbaycana doğru parlayır

Bu gün Azərbaycan dünya miqyasında müstəqil siyasət yürüdən, regional və qlobal problemlərin həllinə fəal şəkildə töhfə verən, transregional nəqliyyat və enerji layihələri ilə region və onun hüdudlarından kənarda sülhün, sabitliyin möhkəmlənməsində əhəmiyyətli rol oynayan ölkələrdən biridir. Önəmlə vurğulamaq lazımdır ki, ərazi və əhali baxımından qismən kiçik dövlət olan Azərbaycanın müstəqil xarici siyasət yürütmək imkanlarını Prezident İlham Əliyevin güclü şəxsiyyət kimi qətiyyətli mövqeyi, dərin və strateji baxışı və düşünülmüş, çevik qərarları və uzaqgörən siyasəti şərtləndirir. Dövlətimizin başçısının yürütdüyü praqmatik və tarazlaşdırılmış çoxşaxəli xarici siyasət və strateji diplomatiya ötən 17 il ərzində beynəlxalq arenada dövlətimizin nüfuzunun yüksəlməsinə, regional liderlik rolunun daha da möhkəmlənməsinə və ölkəmizin dinamik inkişafına xidmət etmişdir. Məhz hakimiyyətə gəldiyi 2003-cü ilin oktyabrından etibarən Prezident İlham Əliyev, ulu öndərin böyük uzaqgörənliklə irəli sürdüyü xarici siyasət kursunu yeni dövrün tələblərinə uyğun davam etdirərək, dövlətimizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsinə, qlobal təhdid və çağırışlara adekvat cavab verərək və çoxqütblü əməkdaşlıq sferasında həlledici uğurlara imza ataraq, milli maraqların maksimum səviyyədə qorunmasına nail olmuşdur. Uğurla aparılan tarazlaşdırılmış çoxşaxəli xarici siyasət nəticəsində nəinki ayrı-ayrı maraqlı ölkələr, beynəlxalq təşkilatlar və digər müvafiq strukturlarla, o cümlədən regional hərbi, enerji və nəqliyyat təhlükəsizliyi sahəsində geoiqtisadi və geosiyasi maraqları üst-üstə düşməyən Rusiya ilə də strateji, bərabərhüquqlu və qarşılıqlı-faydalı tərəfdaşlıq münasibətlərinin yaradılmasına və inkişafına nail olunmuşdur. Heç şübhəsiz ki, Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm prioritetlərindən biri hər zaman Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi olmuşdur. Müstəqilliyimizin ilk illərində dünya ictimai fikrində barəsində təhrif edilmiş məlumatlar əks olunan və hətta ərazisi işğal olunmasına baxmayaraq, sanksiyalara məruz qalan ölkəmizin son illər ərzində aparılan ardıcıl və qətiyyətli fəaliyyət nəticəsində beynəlxalq hüquqla müəyyən edilmiş sərhədlərinin toxunulmazlığı, suverenliyi və ərazi bütövlüyü dünya dövlətləri tərəfindən dəstəklənməklə qalmamış, Qarabağ münaqişəsinin tarixi və torpaqlarımızın Ermənistan tərəfindən işğal edilməsi faktı ilə bağlı da dünya ictimaiyyətində obyektiv fikir yaranmışdır.

Ermənistan silahlı qüvvələrinin 1990-cı illərin əvvəllərində Azərbaycan torpaqlarını işğal etməsi və Xocalı soyqırımını törətməsi, 5 may 1994-cü ildə əldə edilən atəşkəs rejiminə baxmayaraq, Azərbaycanın Ermənistanla sərhəddində yerləşən bölgələrini müntəzəm olaraq atəşə tutması, 2016-cı il aprel təxribatı və 12 iyul 2020 tarixində Tovuz istiqamətində Azərbaycana qarşı hücumları zamanı mülki əhalinin hədəfə alınması, eləcə də, Vətən müharibəsinin baş verdiyi hazırki dövrdə münaqişə zonasından uzaqda yerləşən Gəncə, Mingəçevir, Kürdəmir, Siyəzən, Qəbələ, Xızı və digər Azərbaycan şəhərlərinə, mülki insanlara və mülki obyektlərə ballistik və reaktiv raketlərlə olan təcavüzkar aktları Ermənistanın açıq-aşkar Azərbaycana qarşı terrorist və təcavüzkar siyasət apardığını bir daha nümayiş etdirir. Bu mənada Azərbaycan Respublikasının beynəlxalq humanitar hüququn hərbi zərurət, legitim hərbi hədəflər, cavab tədbirlərinin proporsionallığı, mülki əhalinin müdafiəsi kimi prinsiplərini diqqətə alaraq apardığı legitim müharibə, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, Ermənistanın hərbi təcavüzünə qarşı özünü müdafiə və beynəlxalq hüquqla sahib olduğumuz torpaqların geri qaytarılması məqsədi daşıyır.

Sentyabrın 27-dən bugünə qədər davam edən qələbə dolu tarixi zəfər günlərimizdə bir tərəfdən işğal altında olan torpaqlarımız geri alınarkən, digər tərəfdən diplomatik müstəvidə də güclü mübarizə gedir. Artıq bir aydır ki, şanlı zəfərimiz, müzəffər ordumuzun rəşadəti, Prezidentimizin qətiyyətli duruşu və tarixi Azərbaycan torpaqlarında ədaləti bərqərar etməsi bütün dünya ictimaiyyətinin gündəmində yer alır. Dünyanın bir çox ölkəsində, o cümlədən erməni diasporası və lobbisinin güclü olduğu ölkələrdə soydaşlarımız ordumuza və Prezidentimizə dəstək aksiyaları keçirir, dünya birliyini bu problemə ədalətli qiymət verməsinə çağırır. Siyasi partiyaların mütləq əksəriyyəti işğal olunmuş ərazilərin qaytarılması ilə bağlı Ali Baş Komandanın yürütdüyü siyasəti tam dəstəkləyir. Bir sözlə, Azərbaycan xalqı həm daxildə, həm beynəlxalq arenada birlik və dayanışma nümayiş etdirir.

Bizim indi döyüş meydanında qələbələr qazanmağımız və bu günlər ərzində bütün ölkələrlə siyasi danışıqlarda haqlı mövqeyimizi çatdıra bilməyimiz məhz dövlət başçısının siyasi xadim kimi müdrik fəaliyyətinin və əvvəlki illərdə əldə edilən diplomatik uğurların nəticəsidir. Bu gün hərb sahəsindəki zəfərlərimizdə xalqımızın Ali Baş Komandanına olan inamı, güvəni və dəstəyi hiss olunur.

Xüsusilə qeyd etmək lazımdır ki, qələbə dolu tarixi zəfər günlərimizdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təcavüzkar Ermənistanı siyasi-diplomatik sferada da ağır məğlubiyyətə uğradır. Prezident İlham Əliyevin demək olar ki, hər gün xarici televiziya kanallarına və qəzetlərinə verdiyi müsahibələrində müstəqil Azərbaycanın haqq, ədalət savaşında güclü iradəsinin şahidi oluruq. Dövlət başçımızın jurnalistlərin çaşdırıcı, sətiraltı məzmunlu, hətta bəzən hədələyici xarakterli suallarına səbr, təmkin və iti siyasi-diplomatik zəka ilə verdiyi cavablar hər birimizdə qürur hissi yaradır.

Azərbaycan Prezidentinin növbəti müstəsna əhəmiyyət kəsb edən qələbəsi, oktyabrın 19-da BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasın yekunu olaraq ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri tərəfindən hazırlanan və Ermənistanın Azərbaycana qarşı gücdən istifadə etməsinin pislənildiyi, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olaraq qəbul edildiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasının tələb olunduğu 1993-cü il tarixli BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilməyən bəyanat layihəsinin, Qoşulmama Hərəkatına üzv olan dövlətlərin israrlı və prinsipial mövqeyindən sonra təsdiqlənməməsi və rəsmən geri götürülməsi oldu. Bu da yenə Prezident İlham Əliyevin illər ərzində həyata keçirdiyi diplomatik siyasətdən və uzaqgörən addımlarından irəli gəlir. Bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev uzun illər boyu yerinə yetirilməyən qətnamələrin icrasını uğurla yerinə yetirir.

Zəfər tariximizdə qürurla anılacaq bu günlərdə, daxili siyasi prosesinə erməni lobbisinin təsir etdiyi dövlətlər tərəfindən çoxsaylı təzyiqlərlə qarşılaşsaq da, bu dövlətlər də daxil bütün dünya ictimaiyyəti Azərbaycanın ərazi bütövlüyünü, 30 ilə yaxındır torpaqlarımızın Ermənistan işğalı altında olduğunu qəbul edir və Azərbaycanın qısa müddətdə öz ərazi bütövlüyünü bərpa edəcəyini anlayır. İndi artıq bütün ulduzlar Azərbaycana doğru parlayır.

Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yaxın zamanlarda bütün işğal altında olan torpaqlarımızın azad olunacağına ürəkdən inanır. Bu inamın arxasında xalqın iradəsi, Ali Baş Komandanın qətiyyəti, müzəffər ordumuzun rəşadəti dayanır.

Yaşasın Azərbaycan!

Qarabağ Azərbaycandır!

**Günel ÇƏLƏBİZADƏ,**
**Zarağan kəndi.**

# Komandanı xalq seçəndə

**Ən ali dəyər**

30 ilə yaxın bir müddət ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri status-kvonu dəyişmək üçün heç bir hərəkət etmədilər. Mövcud diplomatik və hərbi ətalət isə həmsədrləri və Ermənistanı qane edirdi. Lakin Azərbaycan döyüş meydanında status-kvonu dəyişdi... Bir sıra rayonlar işğaldan azad edildi. Hadrutun azad edilməsinin isə böyük geosiyasi əhəmiyyəti var.

Azərbaycanın Ermənistan qarşısında hərbi üstünlüyə malik olması beynəlxalq səviyyədə etiraf olunan reallıqdır.

Hərbi sənaye kompleksi inkişaf edən dövlətlərlə sıx əməkdaşlığın həyata keçirilməsininin nəticəsi olaraq hazırda Azərbaycan ordusunun silahlanması və ən müasir döyüş əməliyyatlarının aparılmasına imkan verən texnikalar mövcuddur. Az bir müddət ərzində Dağlıq Qarabağdakı Ermənistan ordusunun darmadağın edilməsi də bunu təsdiqləyir.

Həmişə olduğu kimi, Ermənistanın hərbi təxribatlarına qarşı başlanan son əks-hücum əməliyyatlarının gedişində ölkəmizin Prezidenti yenilməz siyasi iradə, qətiyyət, prinsipiallıq göstərdi, düşmən ölkənin havadarları olan dövlətlərin təzyiq cəhdlərinə baxmayaraq, Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə etdi. Bu bir daha sübut etdi ki, Prezident İlham Əliyev üçün Azərbaycanın milli maraqları ən ali dəyərdir.

**Xalqın inamı**

Günlərdir hər bir azərbaycanlının evində televizorlar fasiləsiz izlənilir. Hər bir vətəndaş cəbhə bölgələrindən xəbərləri izləyir, qaçan sətirləri belə hərf-hərf gözdən keçirirlər. Ən ümdəsi isə Ali Baş Komandanının çıxışını səbirsizliklə gözləyir və onun dediyi hər bir sözə, hər bir fikrə böyük inancla, inamla qulaq asır, dürüst və doğru olanını yalnız ölkə Prezidentinin dilindən eşitmək istəyirlər. Onun hər kəlməsi xalqın mübarizə və döyüş əzmini yüksəldir, xalqı onun ətrafında daha sıx birləşdirir.

Onun məntiqi, səlis, aydın nitqi, toxunduğu məsələyə tarixi, hüquqi, ədalət və insan haqları nöqteyi nəzərindən yanaşması xalqın öz liderinə hörmətini artırır. O, hərdən əsassız təkid edənlərə, erməniləri açıq-aşkar müdafiə edənlərə yerlərini göstərir.

**Yalan yeriməz...**

Yaşadığımız əsrin müharibələrinə həm də hibrid müharibəsi deyirlər. Çünki müharibələr artıq döyüş meydanında yox, digər müstəvilərdə də aparılır. Belə vacib meydanlardan biri informasiya müharibələridir.

Yalan, şər və böhtan xarakterli ermənilər informasiya müharibəsində həmişə fəal olmuş, diasporları vasitəsilə dünya mediasında üstünlüyü ələ keçirmiş, əksər hallarda yalanlarına "həqiqət donu" geyindirə bilmişlər. Birinci Qarabağ müharibəsi dövründə və sonrakı proseslərdə bunun dönə-dönə şahidi olmuşuq.

İndi isə erməni yalanı bəzən ayaq tutsa da yerimir, Prezidentimiz buna imkan vermir, həm də təkzibolunmaz faktlarla.

**İnformasiya müharibəsində**

İlham Əliyev informasiya müharibəsində də həmişə fəal olmuşdur. O siyasi uzaqgörənliyi, diplomatik peşəkarlığı ilə Ermənistana və erməni lobbisinə ciddi zərbələr vurdu. O, dünyanın əsas televiziya kanallarına müsahibələrində ("CNN İnternational", "CNN-Türk", "Sky News", "Evronews", "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Rossiya-1", "TRT Haber", "Pervıy Kanal" və s.) Azərbaycana qarşı həyata keçirilən saxta təbliğatı, yalan informasiyaları ifşa etdi.



Prezident İlham Əliyev mövcud vəziyyəti şərh edərkən demişdir: "Status-kvo yoxdur, təmas xətti yoxdur, ermənilərin öz orduları haqqında uzun illər uydurduğu yenilməz ordu əfsanəsi yoxdur. Biz göstərdik kim kimdir. Ona görə bu reallıqlarla gərək həm Ermənistan həm də bütün dünya hesablaşsın".

Azərbaycan xalqının torpaqlarımızı azad etmək üçün döyüş əzmi bütün dünya dövlətləri tərəfindən izlənildi.

**"Biz erməniləri döyüş meydanında məğlub edirik"**

"Biz hərbi avadanlığı bir çox ölkələrdən alırıq. Bizi hərbi avadanlıqla ən çox təchiz edən Türkiyə və İsrail deyil. Bu Rusiyadır. Lakin biz Ermənistandan fərqli olaraq Rusiyadan aldığımız silahlara görə pul ödəyirik.

Həmçinin İrandan, Ukraynadan, Belarusdan silah alırıq. Əlbətə ki, bizim bu gün ordumuza ərazi bütövlüyümüzü bərpa etməyə kömək edən müasir silahları almaq imkanımız var. Bizim ərazi bütövlüyümüz öz tərəfimizdən bərpa olunur. Təbii ki, bizim regionda istənilən ölkə silah alır. Dünyada heç də bütün ölkələr özlərini 100 faiz hərbi avadanlıqla təchiz edə bilməz. Biz silahlara görə ödəniş edirik, yaxşı silahları alırıq və onlar yerində bizə kömək edir. Lakin ərazilər dronlar vasitəsilə işğaldan azad edilmir. Ərazilər əsgərlər, orada öz vəzifəsini yerinə yetirən insanlar tərəfindən azad edilir".

**Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsindən...**

Prezident İlham Əliyev hər dəfə başqa ölkə televiziya kanallarına və mətbu orqanlarına müsahibəsində ölkəmizdəki vəziyyət, torpaqlarımızın işğaldan təmizlənməsi və bu yolda müqəddəs ordumuzun şücaəti, vətənpərvər ruhlu əsgərlərimizin qəhrəmanlıq döyüşü, qaçqın və məcburi köçkünlərin işğaldan azad olmuş torpaqlarda - öz doğma obalarında yaşamasını, Qarabağın elə Azərbaycan olduğunu qətiyyətlə söyləyir.

Yaponiyanın «Nikkei» qəzetinə müsahibəsi zamanı iki ölkə arasında nə vaxt danışıqlara başlanmasını Prezidentimiz cavablandırarkən demişdir:

"Minsk qrupunun vasitəçiliyi ilə 2 ölkə arasında razılaşdırılmış əsas prinsiplərdə deyilir ki, işğal olunmuş bütün ərazilər Azərbaycana qaytarılmalıdır, bizim qaçqın və məcburi köçkünlərimiz işğal olunmuş bütün ərazilərə qaytarılmalıdırlar, o cümlədən Dağlıq Qarabağın ərazisinə, qədim Azərbaycan şəhəri olan Şuşanın ərazisinə. Buna görə də Ermənistan hökuməti bu prinsiplərə sadiq olduğunu, bu

**(Ardı 4-cü səhifədə).**